# GƏNCƏ REGİONAL ELMİ MƏRKƏZİNİN İNFORMASİYA TƏMİNATININ MÜASİR VƏZİYYƏTİ

**İradə Bayramova**
*Biblioqrafiyaşünaslıq kafedrasının müəllimi,*
*tarix üzrə fəlsəfə doktoru*
*irade8@mail.ru*

***Xülasə:*** *Məqalədə Gəncə Regional Elmi Mərkəzinin elmi-tədqiqat fəaliyyəti və müasir vəziyyəti araşdırılmışdır. Araşdırma Elmi Mərkəzin son bir neçə il ərzindəki elmi hesabatları əsasında aparılmışdır.*
***Açar sözlər:*** *Gəncə Regional Elmi Mərkəzi, elmi-tədqiqat fəaliyyəti, elmi hesabat.*

**Giriş.** Regional Elmi Mərkəzlər elmi tədqiqat və təcrübi istehsalat bazasını inkişaf etdirmək, müasir tələblərə cavab verən infrastruktur yaratmaq məqsədi ilə xarici hüquqi və fiziki şəxslərlə əməkdaşlıq etmək, Azərbaycan Respublikasının qanunlarına və öz nizamnamələrinə zidd olmayan fəaliyyət növləri ilə məşğuldur. Elmi fəaliyyətin subyektləri alimlər, elmi tədqiqatçılar, elmi işçilər, elmi-pedaqoji kadrlar və s.-dir. Elmi fəaliyyətin subyektləri əldə olunması qanunla məhdudlaşdırılan informasiya istisna olmaqla, "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, elmi və elmi-texniki informasiyalara sərbəst çıxış əldə etmək, informasiya mübadiləsini həyata keçirmək hüququna malikdir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın təsdiq olunması ilə bağlı sərəncamında 2015-2025-ci illərdə Azərbaycanda təhsil sisteminin qarşısında duran mühüm vəzifələr öz əksini tapmışdır. Sərəncamda görüləcək Tədbirlər Planı ilə əlaqədar olaraq deyilir: "Ali təhsil müəssisələrinin təhsil-tədqiqat-innovasiya mərkəzlərinə çevrilməsinə dəstək verən rəqabət qabiliyyətli mütəxəssis hazırlığını təmin edən ali təhsil standartlarının tətbiqi yerinə yetirilməlidir. Strategiyanın əsas məqsədi, ölkədə səriştəli təhsil verənlərə ən yeni texnologiyalara əsaslanan infrastruktura malik keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan təhsil sistemini yaratmaqdır. Azərbaycanın təhsil sistemi iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartlarına uyğun olmalıdır. Strategiyanın reallaşması təhsilin məzmununun, kadr hazırlığının, təhsili idarəetmə sisteminin və təhsil infrastrukturunun qabaqcıl beynəlxalq təcrübəyə və Azərbaycanın inkişaf konsepsiyasına uyğun yenidən qurulmasına imkan verərək, ölkədə biliklərə əsaslanan iqtisadiyyatın bərqərar olmasını, informasiya cəmiyyətinin təşəkkülünü və ölkənin davamlı inkiafını təmin edəcəkdir (3).

Regionların sosial-iqtisadi və mədəni inkişafına təkan verən elmi tədris və təhsil sisteminin müasir informasiya cəmiyyətinin tələbləri səviyyəsində in-



kişafını təmin etmək, regionların əmək bazarına uyğun olaraq, kadr hazırlığının və onların ixtisas səviyyələrinin yüksəldilməsi istiqamətində vəzifələrin həyata keçirilməsini təmin etməkdən ibarətdir (1).

Dövlət elmi irsin toplanması, saxlanılması, sistemləşdirilməsi və qorunması məqsədi ilə elmi arxivlərin, fondların müasir tələblərə uyğun maddi-texniki baza və infrastrukturunun yaradılmasını təmin edir, elmi informasiyanı qorumaqla istifadə olunmasına təminat verir.

Elm sahəsində beynəlxalq əməkdaşlıq Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr əsasında həyata keçirilir. Xarici ölkələrin elm və təhsil müəssisələri, beynəlxalq təşkilatlar və fondlarla əlaqələr yaradılmaqla əməkdaşlıq haqqında müqavilələr bağlanır, elm sahəsində fəaliyyət göstərən dövlət və qeyri-hökumət qurumlarına üzv olur. Beynəlxalq elmi və elmi-texniki proqram və layihələrdə iştirak edir. Beynəlxalq əməkdaşlıq beynəlxalq səviyyəli birgə layihələrin hazırlanması, fundamental və tətbiqi elmi tədqiqatların və layihə-konstruktor işlərinin təşkili, elmi-praktik forum, konfrans, simpozium, seminar, dəyirmi masa və digər elmi tədbirlərin keçirilməsi, magistr, doktorant, müəllim və elmi işçilərin mübadiləsi, müəlliflik hüququnun qorunması tədbirləri ilə həyata keçirilir.

Elmi müəssisə və təşkilatlar beynəlxalq əməkdaşlığı genişləndirmək və elmi fəaliyyətin keyfiyyətini yüksəltmək məqsədi ilə xarici tərəfdaşlarla ölkə daxilində və xarici dövlətlərdə müştərək struktur bölmələri (elmi mərkəzlər, filiallar, laboratoriyalar, texnoparklar və s.) yaratmaq hüququna malikdir. Azərbaycan Respublikasında vətəndaşlığı olmayan əcnəbilərin doktorantura səviyyəsində təhsil almaları ölkəmizin tərəfdaş çıxdığı beynəlxalq müqavilələr, elm və təhsil müəssisələri ilə bağlanan müqavilələr əsasında həyata keçirilir (4).

Elmi müəssisə və təşkilatlar və ali təhsil müəssisələri elmi fəaliyyətin əlaqələndirilməsi, maddi, texniki, maliyyə və kadr resurslarından səmərəli istifadə olunması, vahid texnoloji prosesin (elmi tədqiqat nəticələrinin istehsalata tətbiqinə qədər) təmin edilməsi məqsədi ilə hüquqi şəxs statusunda elmi mərkəzlər yarada bilər.

**Əsas hissə.** Regional Elmi Mərkəzlər yaradıldığı regionlarda elmi-fəaliyyəti əlaqələndirməklə, aparılan elmi-tədqiqat işlərinin koordinasiyası rolunu oynayır. Regional Elmi Mərkəzlər elmi və elmi-texniki tədqiqatların təşkilini müxtəlif elm, təhsil, istehsal, xiidmət, və digər sahələrin kooperasiyası əsasında həyata keçirir. Elmi fəaliyyət sahəsində əhəmiyyətli nailiyyətlər əldə edən, beynəlxalq səviyyədə tanınan, yüksəkixtisaslı elmi kadr potensialına, zəruri maddi-texniki bazaya və infrastruktura malik olan elmi müəssisə və təşkilatlara "Elmi Mərkəz" statusu verilə bilər (4).

Respublikamızın 4 regionunda Regional Elmi Mərkəzlər yaradılmışdır. Onlardan birid Qərb regionunda yaradılmış Gəncə Regional Elmi Mərkəzidir (2).

Gəncə Regional Elmi Mərkəzi ölkənin elmi əsaslarla dinamik inkişafı prosesinə və kadr hazırlığına xüsusi önəm verir. Ötən əsrin 40-cı illərində keçmiş SSRi-nin Elmlər Akademiyasının filialı Bakı şəhərində yaradılmışdı. Eyni

zamanda Gəncə şəhərində də kənd təsərrüfatı elmləri sahəsində filial kimi yaradıldı. Lakin bu filial bir müddətdən sonra öz fəaliyyətini dayandırdı. 1981-ci il 06 oktyabrda Gəncə şəhərində AMEA-nın Rəyasət Heyətinin qərarı ilə Gəncə Regional Elmi Mərkəzi yaradıldı. Regional Elmi Mərkəzin struktur bölmələri belə idi: 1) Farmakoloji kimya; 2) Ekologiya və təbii sərvətlər; 3) Azərbaycan ədəbiyyatı, tarixi və incəsənəti; 4) İqtisadi tədqiqatlar;

Gəncə Regional Elmi Mərkəzində akademik elmin inkişafı, tədqiqat sahələrinin genişlənməsi, elmin informasiyalaşdırılması prosesinin təminatçısı olan Mərkəzi Elmi Kitabxananın (MEK) qarşısına mühüm vəzifələr qoyuldu. Regionun inkişaf perspektivini təmin edən inteqrasiyalı elmi-informasiya sisteminin, elmi-sahəvi, biblioqrafik bazaların AMEK-nın bölmə və elmi mərkəzlərinə müraciət ünvanlanıb innovativ informasiya xidməti servisi paketi təklif edilmişdir (2).

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 19 dekabr 2012-ci il tarixli Sərəncamı ilə Gəncə Regional Elmi Mərkəzinin bazası əsasında AMEA-Gəncə Bölməsi və onun nəzdində yeddi elmi tədqiqat İnstitutu yaradıldı: 1) Nizami Gəncəvi Mərkəzi; 2) Humanitar Tədqiqatlar İnstitutu; 3) Diyarşünaslıq İnstitutu; 4) Bioresurslar İnstitutu; 5) Ekologiya və Təbii Ehtiyatlar İnstitutu; 6) Nəbatat bağı; 7) Aqrar Problemlər İnstitutu;

Gəncə şəhəri tarixən qədim olduğu kimi həm də burada yaşayıb yaradan görkəmli şairlər, mütəfəkkirlər, klassiklər haqqında da araşdırmalar aparılmışdır. Belə ki, Nizami Gəncəvi, Məhsəti Gəncəvi kimi klassik şairlər və onların yaradıcılığı haqqında, xüsusən də Nizamişünaslığın aktual problemlərinin araşdırılması və tədqiq edilərək dünyaya çatdırılması mühüm əhəmiyyət daşıyır. Qərb regionunda arxeloji qazıntıların aparılması, etnoqrafik materialların toplanması və tədqiq edilməsi, pambıqçılıq, ipəkçilik kimi tədqiqat mərkəzlərinin yaradılması elmi araşdırmalar əsasında həyata keçirilir.

"Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2016-2020-ci illər üçün Dövlət Proqramı"nın qarşıya qoyduğu vəzifələrə əsasən, informasiya texnologiyaları şöbəsi tərəfindən elmi-tədqiqat işlərinin dövri elektron ədəbiyyatla təmin olunması, yeni innovativ texnologiyaların araşdırılması və s. üçün sistemli iş aparılır. Qərb regionunda fəaliyyət göstərən elmi-tədqiqat müəssisələrinin əməkdaşlarına informasiya texnologiyaları üzrə müasir tətbiqi proqramların öyrədilməsi, əldə olunan elmi nailiyyətlərin nəşr edilməsi və arxivləşdirilməsi həyata keçirilir. Eyni zamanda elmi kadr hazırlığı məqsədi ilə, Distant tədris sisteminin aparılması diqqəti cəlb edir. İnformasiya Texnologiyaları İnstitutunun dəstəyi ilə regional bölmədə Distant təhsil həyata keçirilir (6).

Gəncə Regional Elmi Mərkəzinin alimləri və əməkdaşları ölkədə və xaricdə elmi-tədqiqat işləri ilə bağlı əlaqələr yaradırlar. Elmi kadrların hazırlanması məqsədi ilə elmi əsərlərin, monoqrafiyaların, məqalələrin nəşri, birgə aparılan elmi-tədqiqat işlərinin, akademik və informasiya mübadilələrinin aparılması üçün Gəncə Dövlət Universitetinin, Azərbaycan Dövlət Aqrar Universitetinin, Azərbaycan Texnologiya Universitetinin Gəncə bölməsində sahə



üzrə kafedralar yaradılmışdır. Elmin müxtəlif sahələri üzrə-kimya, tarix, biologiya, filologiya və s. ixtisaslaşmış bakalavr və magistratura səviyyəsində təhsil alan tələbələr ixtisaslaşmış fərdi və ya qrup halında Gəncə Regional Elmi Mərkəzində təcrübə keçirlər. Regional Mərkəzin alimləri dünyanın bir çox ölkələrində, o cümlədən ABŞ-nın Smitson İnstitutunun Milli Təbiət Tarixi Muzeyi və Yaponiyanın Tokio Muzey Universitetinin alimləri ilə birgə qədim Gəncə qalasının tədqiq edilməsi ilə bağlı arxeoloji qazıntılar aparırlar. Aparılan tədqiqatlarla bağlı Regional Mərkəzin alimlərinin onlarla elmi məqalələri yüksək impakt faktorlu elmi jurnallarda dərc edilir (5).

Diyarşünaslıq İnstitutunun əməkdaşları AMEA-nın Arxelogiya və Etnoqrafiya İnstitutu Aralıq dənizi və yaxın Şərq Tədqiqatlarının arxeloqları ilə birgə elmi tədqiqatlar aparırlar. Mərkəzin bir qrup əməkdaşı Azərbaycan Prezident yanında "Elmin inkişaf Fondu"nun dəstəyi ilə, Kabardin-Balkar Respublikasının Nalçik şəhərində alunit minerallarının tədqiqi ilə bağlı birgə elmi əməkdaşlıq edirlər.

Gəncənin tarixi-xüsusən yaxın tarixi ilə-Azərbaycan Xalq Cumhuriyyətinin 102 illik yubileyi ilə bağlı aparılan araşdırmalar Elmi Mərkəzin fəaliyyətində çox önəmli yer tutur. Bu araşdırmaların nəticəsi olaraq, "Azərbaycan Xalq Cumhuriyyəti" adlı biblioqrafik monoqrafiyanın çap edilməsi önəmli yer tutur. Bu monoqrafiyada görkəmli şəxsiyyətlərin, dövlət xadimlərinin haqqında ətraflı məlumatlar verilmişdir. Ümumiyyətlə, qeyd etməliyik ki, Regional Elmi Mərkəzdə gənc tədqiqatçıların elmi araşdırmalarının nəticəsi olan məqalə və tezisləri ölkənin və dünyanın bir -çox aparıcı elmi jurnallarında nəşr olunur (7).

Gəncə Regional Elmi Mərkəzinin elmi fəaliyyəti ilə bağlı son bir neçə illik hesabatlarını nəzərdən keçirək: Elmi Mərkəzdə 2018-ci ildə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektoru üzrə strateji yol xəritələri", "Azəraycan-2020: gələcəyə baxış İnkişaf Konsepsiyası", "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı iqtisadiyyatına dair 2017-2020-ci illər üçün Milli Strategiya", "Azərbaycan elminin inkişaf Doktorinası" və s. eyni zamanda dövlət proqramlarının əsasında elmi-tədqiqat işləri aparılmışdır.

Elmi Mərkəzdə 6 problemi əhatə edən 23 mövzuda 38 mərhələdə 27 iş üzrə elmi-tədqiqatlar aparılmışdır. Hesabat ilində cəmi 157 kitab, monoqrafiya, məqalə və tezis nəşr olunmuşdur.Eyni zamanda xarici elmi jurnallarda 53 məqalə, 21 tezis, 2 kitab və monoqrafiya, impakt faktorlu elmi yurnallarda 38 məqalə çap edilmişdir.

Elmi Mərkəzin əməkdaşları Türkiyənin TUBİTAK ali elmi qurumu, İtaliyanın Aralıq dənizi hövzəsi və Yaxın Şərq Tədqiqatlar Mərkəzi və s. qurumlarla birgə fəaliyyət göstərmişdir.

Elmi Mərkəzdə 2019-cu ildə Rusiyanın Dubna Birləşmiş Nüvə Tədqiqatlar İnstitutu ilə birlikdə "Ekoloji problemlərin həllinə dair Seminar" keçirilmişdir. Bu hesabat ilində 4 problemi əhatə edən 27 iş üzrə elmi tədqiqatlar aparılmış, 122 əsər, 1 kitab, 3 monoqrafiya, 88 məqalə və 30 tezis nəşr edilmiş, 32 məqalə və 9 tezis xarici elmi jurnallarda çap olunmuşdur. Onların 19-u

impakt faktorlu jurnallarda nəşr olunub. Elmi Mərkəzin hesabat ilində beynəlxalq elmi əlaqələri genişlənmiş, İtaliyanın Aralıq dənizi hövzəsi və Yaxın Şərq Tədqiqatları Mərkəzi, Fransanın ikinci Lion Universiteti, Çexiya Elmlər Akademiyası, Polşanın Yaqellon (Krakov) Universiteti, Rusiyanın Kabardin Balkar Dövlət Universiteti, Dubna Nüvə Tədqiqatları Mərkəzi və bir çox qurumlarla birgə elmi fəaliyyət göstərmişdir.

Bölmənin Gənc Alim və Mütəxəssislər Şurasının üzvləri dünyanın 10-a yaxın ölkəsinin impakt faktorlu jurnallarında 40-a qədər elmi əsərlər çap etdirmişlər. Eyni zamanda İnformasiya Texnologiyaları şöbəsinin əməkdaşları "Azərbaycan informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"ya əsaslanaraq elektron elmin inkişafı ilə bağlı konkret işlər həyata keçirmişlər (7).

Gəncədə fəaliyyət göstərən universitetlərdə Elmi Mərkəzin yaradılmış kafedraları fəaliyyətini davam etdirmiş, gənc elmi kadrların hazırlanması məqsədi ilə elmi əsər, məqalə və monoqrafiyaların nəşri, müştərək işlərin akademik və informasiya mübadilələrinin aparılması istiqamətində birgə işlər görmüşlər.

Gəncə Regional Elmi Mərkəzinin 2020-ci il elmi fəaliyyəti:

Gəncə Regional Elmi Mərkəzinin alim və mütəxəssisləri "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı", "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı"nın qarşıya qoyduğu vəzifələri həyata keçirmək üçün elmi fəaliyyətlərini davam etdirmişlər.

2020-ci ildə Elmi Mərkəzin institutlarında 12 problemi əhatə edən 42 mövzu üzrə tədqiqatlar aparılmış, 25 mövzu tamamlanaraq, 26 mühüm nəticə əldə edilmişdir. Aparılan tədqiqatlar nəticəsində 19 monoqrafiya, kitab, dərslik və biblioqrafik göstəricilər, 622 məqalə və tezis nəşr olunub. Onların 345-i xarici elmi jurnallarda – "Web. Of Science" və "Scopus" bazasına düşən elmi jurnallarda çap olunub.

Elmi Mərkəzin institutlarında 55 Azərbaycan və bir Avrasiya patenti alınıb. Eyni zamanda Elmi Mərkəzdə qrant layihələri, elm və təhsilin inteqrasiyası, beynəlxalq əlaqələr də təşkil edilib.

Gəncə Regional Elmi Mərkəzinin alim və mütəxəssisləri, 2020-ci ildə pandemiya şəraitində bir çox onlayn konfranslarda, simpoziumlarda və seminarlarda iştirak etmişlər.

Azərbaycan Ordusunun Qarabağ müharibəsində parlaq qələbəsi, ərazi bütövlüyümüzlə bağlı olaraq, "Qələbə günü" mövzusunda gənc alimlərin Ümumrespublika Konfransı pandemiya şəraitində "Zoom" platforması üzərindən təşkil olunmuşdur. Elmi Mərkəzdə Beynəlxalq Seminar (onlayn) keçirilmişdir. Bu seminarda dünyanın bir çox ölkələrinin, o cümlədən ABŞ, Kanada, İngiltərə, Belçika, Fransa, Almaniya və s. ölkələrdə təhsil alan tədqiqatçı alimlər də iştirak etmişlər (8).



Gəncə Regional Elmi Mərkəzində 2021-ci ildə Humanitar Tədqiqatlar İnstitutu tərəfindən "Azərbaycan dilinin Gəncə dialektinin qrammatik xüsusiyyətləri" tədqiq edilmiş, Qərb regionu folkloru toplanıb araşdırılmış və Qarabağ ədəbi-mədəni mühiti mövzuları üzrə elmi-tədqiqat işləri aparılmışdır. Elmi Mərkəzdə Ukrayna Elm Fondu ilə müxtəlif sahələrdə əməkdaşlığın qurulması üçün Fondun rəhbərliyi səviyyəsində Beynəlxalq Elmi Əməkdaşlıq şöbəsi ilə birgə görüş təşkil edilmiş və əməkdaşlığın Azərbaycan Elmin İnkişaf Fondu ilə birgə gerçəkləşdirilməsi qərara alınmışdır. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində onlayn konfrans keçirilmişdir.

Elmi Mərkəzin əməkdaşı may ayında Ankarada Türkiyə Cumhurbaşqanlığının təşkilatçılığı ilə keçirilmiş Beynəlxalq 1-ci Mediya və İslamofobiya Simpoziumunda iştirak edərək məruzə ilə çıxış etmişdir. Oktyabr ayında Türkiyənin Burdur şəhərində keçirilmiş "İstiqlal marşının qəbulunun 100 illiyinə" həsr olunmuş 3-cü Beynəlxalq Mehmet Akif Ersoy Simpoziumunda çıxış etmişdir.

Dahi Nizami Gəncəvinin 880 illik yubileyinin keçirilməsi məqsədi ilə ölkə Prezidenti cənab İlham Əliyev Sərəncam imzalamışdır. Sərəncamın icrası istiqamətində Gəncə Regional Elmi Mərkəzində dahi şairin həyat və yaradıcılığını tədqiq etmək üçün elmi tədqiqatlar aparılmışdır. Elmi Mərkəzdə "Nizami Gəncəvi lirikası", "Nizami Gəncəvinin səcərə tarixi", "Nizami Gəncəvi obrazı bədii ədəbiyyatda", "Nizaminin musiqi dünyası" və s. monoqrafiyaları nəşr edilmişdir. Elmi tədqiqatların əsas elmi nəticələri kitablar, monoqrafiyalar və yüksək elmi faktorlu jurnallarda nəşr edilən məqalə və tezislərdə əks olunmuşdur.

Gəncə Regional Mərkəzdə aparılan elmi işlərdə Qərb regionunun milli-mənəvi dəyərlərinin öyrənilməsi, görkəmli şəxsiyyətlərin və mütəfəkkirlərin, o cümlədən, xalqımız üçün vacib olan Azərbaycan dilinin, azərbaycançılıq məfkurəsinin tədqiq edilməsinə yönəlmişdir. Qərb regionunun tarixi, arxeoloji və etnoqrafik irsinin, maddi-mədəni və mənəvi mühitinin araşdırılması istiqamətində elmi fəaliyyət uğurla davam etdirilir (9).

Regional Elmi Mərkəzdə 05.05.2022-ci il tarixində "Qarabağ ədəbi-mədəni mühiti yeni baxış müstəvisində" mövzusunda Respublika Elmi Konfransı, akademik Ə. Quliyevin anadan olmasının 110 illiyi ilə əlaqədar 17.05.2022-ci il, görkəmli şair Əhməd Cavadın anadan olmasının 130 illiyi münasibəti ilə 26.05.2022-ci il tarixlərində Elmi-Praktik Konfranslar keçirilmişdir.

Elmi Mərkəzdə çap olunan kitablar: "Nizami Gəncəvinin səcərə tarixi", "Türkiyə-Azərbaycan əbədi amal birliyinin Gəncə səhifələri", "Nizami Gəncəvi poeziyasının Azərbaycan bəstəkarlarının vokal əsərlərində təcəssümü", "Vətən müharibəsi – Gəncə şəhidləri", "Gəncə tarixinin aktual problemləri", "Gəncənin tarix yaddaşı", "Məhsəti Gəncəvi dövründə qadın geyimləri", "Musiqi Nizami "Xəmsə"sinin səhifələrində", "Azərbaycan Xalq Cumhuriyyətinin paytaxtı və mübariz qərargahı-Gəncə" və s. kitablar nər edilmişdir.

Gəncə Regional Elmi Mərkəzdə "Xəbərlər Məcmuəsi" jurnalı nəşr olunur. Bu jurnal AAK tərəfindən elmi nəşrlərin siyahısına daxil edilmişdir. Məc-

muədə "Təbiət və texniki elmlər seriyası", "İctimai və humanitar elmlər seriyası","Pedoqoji elmlər seriyası" və s. öz əksini tapmışdır (9).

Gəncə Regional Elmi Mərkəzdə akademik elmin inkişafı, elmi tədqiqat fəaliyyətinin genişləndirilməsi, fundamental və tətbiqi araşdırmaların vüsət alması elmin informasiyalaşdırılması prosesinin təminatçısı olan Mərkəzi Elmi Kitabxananın da qarşısına mühüm vəzifələr qoyur. Elmi Mərkəzdə yaradılmış işçi qrup bölmə alimlərinin elmi əsərlərinin kolleksiyasını hazırlamışlar. Bunlara dahi mütəfəkkir Nizami Gəncəviyə həsr edilmiş (professor Xəlil Yusifli) monoqrafiya, bölmənin digər əməkdaşlarının Polşada, Çexiyada ingilis dilində çap olunmuş kitabları, Ulu öndər Heydər Əliyev və Gəncə mövzusunda beş cildlik kitabları və s. misal göstərmək olar. Elektron formatda zəruri biblioqrafik resurslar MEK-ə təqdim edilmşdir. Təqdim edilən elmi nəşrlər beynəlxalq biblioqrafik standartlara uyğun işlənmiş, məlumat bazasında yerləşdirilmiş və sərgisi təşkil edilmişdir. Sərginin interaktiv təqdimatı da nəzərdə tutulmuşdur (10).

**Nəticə.** Beləliklə, Gəncə Regional Elmi Mərkəzinin informasiya təminatının müasir vəziyyəti, tədqiqat obyektləri və alınan nəticələrin, araşdırmaların, əməli təcrübə əsasında əldə olunmuş biliklərə əsaslanan, elmi biliklərin əldə edilməsinə, tətbiqinə və təbliğinə yönəlmiş elmi tədqiqat işləri nəticə olaraq, yüksək ixtisaslı kadr hazırlığının yetişdirilməsinə imkan verir. Elmin müəyyən istiqaməti üzrə yeni biliklərin yaranması, yayılması, ötürülməsi, onların konkret informasiya daşıyıcılarında əks olunması, maddi və ictimai dəyərə malik olması elmi kadr hazırlığının səmərəliliyinin yüksəldilməsinə və ölkənin elm, innovasiya potensialının gücləndirilməsinə imkan verməklə, ölkənin sosial-siyasi, iqtisadi, mədəni tərəqqisinin strateji məqsədlərinə xidmət edir.

**İstifadə olunmuş ədəbiyyatın siyahısı:**


1. Bayramova İ.Z. Azərbaycan Respublikasında regional elmi mərkəzlərin elmi fəaliyyəti. //Ümummilli Lider H.Əliyevin anadan olmasının 98-ci il dönümünə həsr olunmuş "Azərbaycan Respublikasında kitabxana-informasiya fəaliyyətinin inkişaf meylləri" mövzusunda Respublika Elmi Konfransının materialları. Bakı,7 may 2021-ci il. Bakı, BDU, 2021. 145 s.
2. Bayramova İ.Z Təhsildə müasir informasiya və kommunikasiya texnogiyaları.- Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal.- №2(47). – 2020. – Bakı: Mütərcim, 2020. – 120 s.

**İnternet resurslar:**

3. president.az/az/articles/view/50474
4. e-qanun.az/framework/
5. azertag.az/xeber/ AMEA_Gence
6. science.qov.az/az/views/open
7. www.science.qov.az.
8. ameagh.az/az/content/
9. science.qov.az/az/ news
10. faktat.az/xeberoxu.




И.Байрамова

**Современное состояние информационного обеспечения Гянджинского Регионального Научного Центра**

***Резюме:*** *В статье рассматривается научно-исследовательская деятельность и современное состояние Гянджинского Регионального Научного Центра. Исследования проводились на основе научных отчетов Научного Центра за последние несколько лет.*

***Ключевые слова:*** *Гянджинского Регионального Научного Центра, научно-исследовательская деятельность, научных отчетов*

I.Bayramova

**The modern state of information provisionin the Ganja Regional Scientific Center**

***Summary:*** *The scientific-research activity and modern situation of the Ganja Regional Scientific Center are examined in the article. The research was conducted on the basis of the Scientific Center for the last few years.*

***Keywords:*** *Ganja Regional Scientific Center, the scientific-research activity, the scientific reports*

***Rəyçi:*** *p.ü.f.dok., dos.* ***X.Ağayeva***